# ƏBƏDİ DOSTLUQ VƏ QARDAŞLIQ NÜMUNƏSİ



**Bir əsrdə iki dəfə müstəqillik əldə etmək şansı qazanmış Azərbaycanın müstəqilliyini rəsmi şəkildə tanıyan ilk ölkə qardaş Türkiyə olmuşdur. Təəssüf hissilə bildirmək lazımdır ki, 70 il sovetlər birliyi dönəmində dili bir, dini bir, əqidəsi bir olan qardaş türk xalqı ilə isti münasibət qurmağa imkan verilməmişdir. Yalnız Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra iki ölkə arasında münasibətlər sürətlə inkişaf etməyə başladı.**

Ölkələrimiz arasında sınaqdan çıxmış əbədi dostluğun böyük tarixi var. Bu dostluq, qardaşlıq əlaqələri gündən-günə daha da möhkəmlənir, inkişaf edir.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, xalqına inamı və rəşadətli ordunun, eyni zamanda, cəsur Azərbaycan əsgərinin göstərdiyi şücaətlər nəticəsində 30 ilə yaxın işğalda qalmış ata-baba torpaqlarımız azad olundu. Həmin ərəfələrdə kimin Azərbaycana dost, kimin isə düşmən olduğu bəlli oldu. Elə müharibənin ilk günlərində Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Türkiyənin, Azərbaycanın yanında olduğunu cəsarətlə bəyan etdi. Bir məqamı böyük qürur hissilə vurğulamaq lazımdır ki, ötən 30 il ərzində Ermənistan dəfələrlə Türkiyə ilə dövlət sərhədlərinin açılmasına cəhd göstərsə də, Türkiyə dövləti birmənalı olaraq nə qədər ki, Azərbaycanın işğal altında olan torpaqları azad olunmayıb, bu barədə əsla söhbət gedə bilməz cavabı verməklə sözün əsl mənasında qardaşlıq nümunəsi göstərmişdi.

44 günlük Vətən müharibəsində ordumuzun müasir silahlarla təchiz edilməsi istiqamətində dövlətimiz tərəfindən alınmış Türkiyə istehsalı olan "Bayraktar" pualarının qısa zaman kəsiyində qələbənin əldə olunmasında mühüm rol oynadı. Türkiyə Prezidenti Zəfər paradında iştirak edərkən çıxışı zamanı demişdir: "Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm, Qarabağ Azərbaycandır! Qarabağ artıq ana vətəninə qovuşmuş, 30 illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəflərimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürəkkürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəyik. Allah köməyimiz olsun!".

Bu səfər Rəcəb Tayyib Ərdoğanın möhtəşəm qələbəmizdən sonra sonuncu səfəri olmadı. Qardaş ölkənin Prezidenti dəfələrlə işğaldan azad olunmuş torpaqlarımıza səfər etdi. Bu günlərdə Bakı şəhərində keçirilən möhtəşəm "TEKNOFEST-Azərbaycan" festivalı uzun müddət yaddaşlardan silinməyəcək. Məlumdur ki, ilk dəfə "TEKNOFEST-Azərbaycan" festivalı Türkiyədən kənarda ölkəmizdə keçirildi. Qardaş ölkənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar festivalda çıxış edərək bildirmişdi ki, Bakıda bu festivalın keçirilməsindən qürur duyuruq. Azərbaycan və Türkiyə xalqları hər zaman bir-birinə dəstəkdir. Bakıdan Şuşaya can Azərbaycanın hər köşəsinə salamlarımı çatdırıram. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla festivalın təşkilinə dəstək verən bütün dövlət qurumlarına, təşkilatlara təşəkkürlərimi bildirirəm. Dərdiniz dərdimiz, sevinciniz sevincimizdir. Allaha əmanət olun".

"TEKNOFEST-Azərbaycan" festivalının Bakıda keçirilməsi bütün dünyaya bir daha Azərbaycan-Türkiyə dostluğunun daimi və əbədi olması mesajını verdi. Bakıda keçirilən "TEKNOFEST-Azərbaycan" festivalında dövlətimizin başçısı cənab İlham Əliyev çıxışı zamanı demişdir: "Türkiyənin uğurlu inkişafı ilk növbədə Prezident Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Mən də öz fəaliyyətimdə həmişə çalışmışam ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edim, Azərbaycanın müstəqil siyasətini təmin edim. Bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır. Mən bir daha əziz qardaşım, hörmətli Prezident və Türkiyədən gəlmiş bütün dostlarımıza qardaşlarımıza və bacılarımıza bu bayram günündə bizimlə bərabər olduqları üçün öz təşəkkürlərimi bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək".

Bu gün vəzifəsindən, yaşından asılı olmayaraq hər bir Azərbaycan və türk vətəndaşı xalqlarımız arasında mövcud olan əbədi dostluq, qardaşlıq münasibətlərindən qürur duyur. Qeyd etmək lazımdır ki, Türkiyə-Azərbaycan arasında imzalanan iqtisadi, hərbi və s. müqavilələr hər iki dövlətin yenilməzliyinə, güclənməsinə hesablanmış və ölkələrimizi güclü dövlətə çevirmişdir.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum boru kəməri, Cənub Qaz Dəhlizi, TANAP və TAP layihələri, Bakı-Tbilisi dəmir yolu xətti və s. iqtisadi əlaqələr inkişafın ən yüksək zirvədə olduğunu təsdiq edir. Heç şübhəsiz, çox yaxın zamanlarda Zəngəzur dəhlizinin açılışı baş tutacaq və bu layihə bütün türk dünyasına töhfələr verəcəkdir.

**Samirə KAZIMOVA,**
**Şəmkir Rayon Kür Qəsəbə**
**Xəstəxanasının baş həkimi.**

Respublika .- 2022.- 9 iyun.- S.4.